**UOT327**

# İRAN İSLAM RESPUBLİKASININ FARS KÖRFƏZİ ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏRİNDƏ MƏZHƏB AMİLİ: TARİX VƏ MÜASİRLİK

**Eldar ƏMİROV***

***Açar sözlər:*** *İran, İslam İnqilabı, Fars körfəzi, şiə qrupları, siyasi maraqlar*

İranın Fars körfəzi ölkələri ilə siyasi münasibətlərini öz mürəkkəbliyi ilə seçilən bir istiqamət kimi səciyyələndirsək, qətiyyən səhv etmiş olmarıq. Tehranın xüsusilə də körfəzin Səudiyyə Ərəbistanı, İraq, Behreyn, BƏƏ kimi ölkələri ilə bir çox hallarda açıq qarşıdurma, hətta müharibə müstəvisinə keçən münasibətlərindəki ənənəvi gərginliyinin tarixi bir çoxlarının yanlış olaraq güman etdiyi kimi, 1979-cu il İslam İnqilabından başlamır, əksinə daha əvvələ, İranda Pəhləvilər hakimiyyəti dövrünə gedib çıxır. Məlum olduğu kimi, Məhəmməd Rza şah Pəhləvi hakimiyyəti dövründə İran Fars körfəzi regionunda öz hərbi-siyasi üstünlüyünü təmin etmək üçün canfəşanlıq göstərir, bu istiqamətdə bəzən ən yaxın müttəfiqi və dayağı olan Qərb ölkələri ilə belə ziddiyyətlərdən çəkinmirdi. Bunun ən böyük nümunəsi kimi İranın bir müddət Qərbin bilavasitə dəstəyi ilə körfəzdə yerləşən bir neçə xırda ərəb əmirliklərinin ittifaqı qismində 1971-ci ildə meydana çıxmış BƏƏ-ni müstəqil dövlət kimi tanımaqdan boyun qaçırmasını göstərmək olar. Həmin vaxt İran Hörmüz boğazında yerləşən Əbu Musa, Böyük Tomba və Kiçik Tomba adaları ətrafındakı ərazi mübahisəsinin öz ədalətli həllini tapmayacağı təqdirdə BƏƏ-ni tanımayacağını bəyan etmişdi**.** [4; 459]

1971-ci ilin payızında Böyük Britaniyanın vasitəçiliyi ilə aparılan danışıqların nəticəsi olaraq sözügedən 3 kiçik ada üzərində Tehranın suverenliyi tanındı və həmin ilin dekabrında İran qoşunları adaları nəzarət altına aldı. Əvəzində isə Tehran BƏƏ-ni 1972-ci ildə müstəqil ölkə kimi tanıyaraq onunla diplomatik münasibətlər yaratdı. [4; 459]

İran BƏƏ ilə eyni ildə, yəni 1971-ci ildə öz müstəqilliyini elan etmiş Bəhreyni dövlət kimi tanıyıb, onunla diplomatik əlaqələr qursa da, bölgənin başqa bir ölkəsi İraqla Tehran arasındakı münasibətlər də daim öz gərginliyi ilə seçilmişdir. Ərazi mübahisələri, iranlı zəvvarların İraqdakı şiə ziyarətgahlarına səfərləri zamanı meydana gələn problemlər, həmçinin İranın İraq ərazisində fəaliyyət göstərən kürd silahlı dəstələrinə verdiyi dəstək 1972-ci ildə hətta iki ölkə arasındakı diplomatik münasibətlərin kəsilməsinə belə gətirib çıxarmışdı. Lakin 1973-cü ildə Əlcəzairin vasitəçiliyi ilə İraqla münasibətlərini bərpa edən İran 1975-ci ildə bu ölkə ilə olan ərazi mübahisələrinin həllinə və sərhədlərin qarşılıqlı maraqlara uyğun bir şəkildə müəyyənləşdirilməsinə nail oldu. [4; 462-463]Lakin Bağdad və Tehran arasındakı etimadsızlıq mühiti şah rejiminin süqutuna qədər dəyişməz qaldı, 1979-cu il İslam İnqilabından sonra isə bu gərginlik bir milyondan artıq insanın həyatına son qoymuş 8 illik İran-İraq müharibəsi ilə nəticələndi. [3; 339].

Pəhləvi rejimi dövründə İran BƏƏ-nin tanınması ilə bağlı məsələni çıxmaq şərtilə Körfəz regionundakı siyasətini aparıcı Qərb ölkələri, xüsusilə də ABŞ-la koordinasiyalı şəkildə, Vaşinqtonun təməl maraqlarına uyğun şəkildə həyata keçirirdi. Bəzi tədqiqatçıların təbirincə desək, İran 1979-cu il İslam İnqilabına qədər Fars körfəzi regionunda "jandarm" funksiyasını icra edirdi. [1; 36]

*siyasi elmlər üzrə fəlsəfə doktoru, ADU

1973-cü ildə İran ordusunun Oman sultanını Kabusun xahişi ilə bu ölkədə baş qaldırmış milli-azadlıq hərəkatını yatırmaq, həmçinin partizan dəstələrini zərərsizləşdirmək məqsədilə Zəffar bölgəsinə müdaxilə etməsi bunun bariz nümunəsini təşkil edir. [2;184]

Tədqiqatçı A.Manuçehri çox doğru vurğulayır ki, İranın körfəz bölgəsində jandarm funksiyasını öz üzərinə götürməsində regionda nüfuz sahibi olmağa hər vəchlə can atan Pəhləvi rejimindən daha çox Britaniya qoşunlarının bu ərazilərdən çıxmasından sonra yaranmış boşluğu narahatlıqla izləyən ABŞ maraqlı idi. Həqiqətən də, İranbritaniyalıların yoxluğu şəraitində SSRİ-nin milli-azadlıq hərəkatları vasitəsilə bölgəyə mümkün nüfuzetmə cəhdlərinin qarşısını almaq üçünVaşinqtonun ən etibarlı müttəfiqi roluna hər mənada uyğun gəlirdi. Belə ki, İranın coğrafi baxımdan həmin bölgədə yerləşməsi və mümkün təhdidlər zamanı hadisələrə çevik müdaxilə imkanlarına sahib olması, eyni zamanda Pəhləvi rejiminin SSRİ-yə təhdid kimi baxması Vaşinqtonun maraqlarına tamamilə uyğun gəlirdi. Bu mənada İranın 1973-1977-ci illər arasında intensiv şəkildə silahlandırılması (göstərilən dövr ərzində İran 15 milyard dollarlıq silah və texnika almışdı), Məhəmməd Rza şahın ordunun müasirləşdirilməsinə böyük diqqət ayırması heç də təsadüfi deyildi. [2; 183-184]

Lakin 1979-cu ilin fevralında İranda baş verən İslam inqilabı vəziyyəti kökündən dəyişdi. Şahın devrilməsi, ruhanilərinin ölkədə siyasi hakimiyyəti ələ keçirməsi, şiəliyin rəsmi dövlət ideologiyası elan edilməsi və Tehranın Qərblə müttəfiqlik münasibətlərindən imtina etməsi Fars körfəzi regionundakı geosiyasi mənzərədə də ciddi dəyişikliklərə gətirib çıxardı. Əgər Pəhləvi rejimi üçün Fars körfəzindəki başlıca prioritetlər sabitliyin qorunması, ərəb monarxiyaları ilə normal siyasi-iqtisadi münasibətlərin formalaşdırılması və Qərbin dəstəyi ilə kommunist təhlükəsi ilə mübarizə kimi məsələlərdən ibarət idisə, İslam respublikası bunun əksinə olaraq sözügedən bölgənin ərazisində tarixən yaşayan şiə qrupları və hərəkatkarı ilə sıx əməkdaşlıqda maraqlı görünürdü. Xüsusilə də İslam İnqilabının rəhbəri Ruhulla Xomeyninin "inqilabın ixracı" ideyası ilə açıq şəkildə çıxış etməsi ərazisində kifayət qədər şiənin yaşadığı Səudiyyə Ərəbistanı, Bəhreyn, İraq kimi körfəz ölkələrində ciddi narahatlıqla qarşılandı.

Məlumat üçün qeyd etmək lazımdır ki, Körfəz ölkələri arasında şiə əhalisinin çoxluğu baxımından əsas yeri Bəhreyn və İraq tutur. Bu amil isə öz növbəsində hər iki ölkəni İranın "inqilab ixracı" konsepsiyasının bir nömrəli hədəflərinə çevirir.

Son illərin statistikasına inansaq, Bəhreyn əhalisinin 74%-i şiədir. Behreyn şiələri özlərini "bəhrani", sünni azlığını isə "ərəb" adlandırır və onların bədəvi hesab edirlər. [1;39]Ancaq sayca üstünlük təşkil etmələrinə baxmayaraq, Bəhreyndə hakimiyyət sünni azlığının əlində cəmləşib. Şiələrin hakimiyyətdə təmsil olunmaması ölkədə mütəmadi olaraq etirazlara və iğtişaşlara rəvac verir. Doğrudur, Bəhreyndə şiə hərəkatının formalaşması İrandakı İslam İnqilabından daha əvvəl başlayıb, ancaq 1979-cu ildən bu yana sözügedən proses daha məqsədyönlü və mütəşəkkil forma almışdır. Tehranın davamlı şəkildə şiəliyin ciddi sosial dayağa malik olduğu Bəhreyndə iqtidar dəyişikliyinə can atması tam təbiidir. İlk belə cəhd 1981-ci ildə baş versə də, həmin vaxt Bəhreyn hakimiyyəti çevrilişin qarşısını almış və açıq şəkildə Tehranı onun daxili işlərinə kobud formada qarışmaqda günahlandırmışdı.

Öz növbəsində Bəhreyndəki sünni iqtidarının ən böyük hərbi-siyasi dayağı və havadarı isə qonşu Səudiyyə Ərəbistanıdır. İranda 1979-cu il inqilabından sonra Tehranla xüsusilə gərgin münasibətlər fonunda Səudiyyə rəhbərliyiBəhreyndəki sünni hakimiyyətinin qorunub saxlanılması və iqtidarın şiə çoxluğunun əlinə keçməməsi üçün bəzən bu ölkəyə açıq hərbi müdaxilədən belə çəkinmir. 2011-ci ilin martında iğtişaşların qarşısını almaq məqsədilə Səudiyyə Ərəbistanının digər körfəz ölkələri ilə birgə Behreynə hərbi qüvvələr göndərməsi bunun bariz nümunəsi hesab oluna bilər. [5]

İranın son illərdə mütəmadi olaraq Bəhreyndəki siyasi proseslərə bu və ya digər şəkildə müdaxilə etmək üçün həyata keçirdiyi çoxsaylı cəhdlər hər iki ölkə arasında dəfələrlə diplomatik gərginliyin yaranması ilə nəticələnir. Bəzi hallarda isə bu mübahisələr BMT müstəvisinə qədər gedib çıxır. Bəhreynin xarici işlər naziri Xalid bin Əhməd əl-Xəlifənin 2015-ci ilin oktyabrında BMT-nin baş katibi Pan Gi Munla görüşdə sonuncuya İranın bu ölkənin daxili işlərinə açıq şəkildə müdaxiləsinə dair təqdim etdiyi etiraz məktubu bu hallardan yalnız biridir. Həmin vaxt Bəhreyn hökuməti İranı bu ölkədə siyasi rejimi dəyişmək üçün terrorçu qruplaşmalardan istifadə etməkdə, həmçinin kütləvi iğtişaşların təşkilində və zorakılıqla daxili proseslərə təsir etmək cəhdində ittiham etmişdi. BMT-yə təqdim edilən məlumatlarda İranın birbaşa dəstəyi ilə baş verən zorakılıq və iğtişaşlarda ümumilikdə Bəhreynin təhlükəsizlik qüvvələrinin 16 əməkdaşının həlak olduğu bildirilirdi. [8]

2016-cı ilin əvvəllərində isə Bəhreyn Səudiyyə Ərəbistanının İrandakı diplomatik nümayəndəliklərinə hücumlara cavab olaraq Ər-Riyadla birgə Tehranla diplomatik münasibətləri dondurmuşdu. Həmin ilin mayında isə Behreyn hökuməti Tehranın hələ də bu ölkədəki siyasi prosesləri öz lehinə çevirmək məqsədilə terrorçu qruplarla əməkdaşlıq etdiyini, onlara təlim keçərək silahlandırdığını bəyan etmişdi. [8]

Ölkələr arasında növbəti ciddi gərginlik dalğası isə 2018-ci ilin noyabr ayına təsadüf etdi. Həmin vaxt Behreyn İranı haker qruplarından istifadə etməklə ölkədə keçirilən parlament seçkilərinin gedişinə müdaxilə etməkdə günahlandırmışdı. Bəhreyn rəsmilərinin fikrincə, Tehran seçkiləri pozmaq üçün kütləvi kiberhücumlar həyata keçirmiş, seçici fəallığının aşağı səviyyədə olması üçün silsilə təxribatlara əl atmışdır. [6]

İranın Bəhreyn istiqamətində kifayət qədər fəal olmasının və israrla bu ölkədəki şiələri hakimiyyətə gətirmək istəməsinin ən əhəmiyyətli səbəblərindən biri də bu ölkədə yerləşən güclü ABŞ hərbi bazalarıdır. Məlumdur ki, Behreyn ABŞ-ın 5-ci donanmasının Körfəz zonasındakı strateji əhəmiyyətə malik başlıca bazasıdır. Son məlumatlara görə, Bəhreyndə 8 minədək ABŞ hərbi qulluqçusu və onlarla döyüş təyyarəsi və xeyli sayda hərbi gəmi cəmləşib. İranın Bəhreyndəki ABŞ bazasından çəkinməsi üçün olduqca ciddi səbəblər var. Çünki buradakı hərbi qüvvələr ABŞ-ın 2001-ci ildə Əfqanıstana və 2003-cü ildə İraqa qarşı həyata keçirdiyi hücum əməliyyatlarında aktiv şəkildə iştirak etmişlər. ABŞ-ın Suriyadakı İŞİD terror təşkilatına qarşı həyata keçirdiyi mütəmadi hava hücumlarının da əsas hissəsi Behreyndəki qüvvələr hesabına təşkil olunur. [10]

Son aylarda ABŞ-ın İrana qarşı həyata keçirdiyi sərt təzyiq siyasəti və mümkün hərbi müdaxiləsi fonunda Tehranın Behreyn istiqamətindən narahat olması tam təbiidir. Ancaq son illərin təcrübəsi göstərir ki, Tehrana qarşı beynəlxalq səviyyədə aparılan təcridetmə siyasəti onun Behreyndəki fəaliyyət imkanlarını da əhəmiyyətli dərəcədə məhdudlaşdırıb. Belə bir vəziyyətdə Tehran Behreyndəki şiə hərəkatının imkanlarından ən yaxşı halda daxili vəziyyəti məhdud zaman kəsiyində gərginləşdirmək üçün bəhrələnə bilər. İranın hal-hazırkı reallıqlar çərçivəsində yaxın perspektivdə Bəhreyndə şiə dövləti qurmaq imkanları inandırıcı görünmür.

Şiə amili İranın 1979-cu ildən sonrakı dövrdə İraqla münasibətlərində də başlıca yer tutur. 2003-cü ilə qədər, yəni ABŞ-ın İraqa hərbi müdaxiləsinə və Səddam Hüseyn rejiminin devrilməsinə qədər İraqda hakimiyyət sünni azlığının ixtiyarında idi. Doğrudur, Səddamın devrilməsindən sonra ölkədə gedən siyasi proseslər şiələrin həm parlamentdə, həm də ölkənin idarəçilik sistemindəki iştirak faizini əhəmiyyətli dərəcədə artırdı. Bundan əlavə, İraqda yaranan siyasi hərc-mərclik və mərkəzi hakimiyyətin zəifliyi İrana 2003-cü ildən bu tərəfə bu ölkədəki şiə amilindən müxtəlif məqsədlərlə öz lehinə yararlanmaq üçün imkanlar yaradıb. Bu proses xüsusilə 2006-2014-cü illərdə İraqın iranmeyilli baş naziri Nuri əl-Malikinin dövründə geniş miqyas alıb. Lakin son aylarda İraqın düçar

olduğu sosial-iqtisadi böhran və İŞİD terroru bu ölkədə yaşayan sünnilərlə yanaşı, şiələrin də İrana olan münasibətini mənfiyə doğru dəyişib. 2018-ci ilin yayında və sentyabr ayında İraqın xüsusilə cənub şəhərlərində keçirilən kütləvi etiraz aksiyalarında yerli əhali yaranmış acınacaqlı vəziyyətdə yerli hakimiyyət orqanları ilə yanaşı İranı da günahlandırmışdı. Onların fikrincə, İranın İraqdakı şiə qruplarından dağıdıcı məqsədlərlə istifadə etməsi, həmçinin İraq rəhbərliyində təmsil olunan iranmeyilli məmurlara neqativ təsiri son nəticədə ölkədəki siyasi sabitliyin pozulmasına, həmçinin ciddi sosial-iqtisadi problemlərin yaranmasına səbəb olmuşdur.[11]

Heç şübhəsiz ki, İraqda İrana qarşı meydana gələn müqavimət zamanla Qərbin və bölgədəki ərəb dövlətlərinin təsiri ilə daha da güclənəcəkdir. Üstəlik Qərbin sərt sanksiyaları ilə üzləşən İranın İraqdakı şiə qruplarını maddi baxımdan dəstəkləmək imkanlarının azalması da bu prosesə öz təsirini göstərəcək. Doğrudur, hələlik İranın İraqdakı təsir resursları kifayət qədərdir və onların tezliklə öz gücünü itirəcəyinə inanmaq gülməli olardı. Ancaq İranın ətrafında 2018-ci ilin payızından etibarən daralan halqa və günbəgün artan iqtisadi və hərbi təzyiq Tehranı ixtiyarındakı bütün resurlarıöz müdafiəsinə səfərbər etməyə vadar edəcək. Bu isə onun bölgənin digər dövlətləri ilə yanaşı İraqın da daxili işlərinə şiə kartı vasitəsilə müdaxilə imkanlarını əhəmiyyətli dərəcədə azaldacaqdır.

İranın 1979-cu ildən bu tərəfə cidd-cəhdlə öz məqsədləri üçün istifadə etməyə çalışdığı dini qruplardan biri də Səudiyyə Ərəbistanında yaşayan şiə icmasıdır. Şiələr Səudiyyə Ərəbistanında İraq və Behreyndən fərqli olaraq azlıq təşkil edirlər və onların ümumi sayı ölkə əhalisinin 25%-inə bərabərdir (təxminən 4,3 milyon nəfər). [1;39]Lakin şiə azlığının, əsasən, ölkənin neft və qazla zəngin Şərq hissəsində məskunlaşması onları Ər-Riyad üçün ciddi başağrısına çevirir. Daim məzhəb zəminində ciddi təzyiqlərlə üzləşən Səudiyyə şiələrinin başlıca siyasi hərəkatı bu ölkənin hakimiyyəti tərəfindən qadağan və təqib olunan "Hizbullah-ül-Hicaz"dır. Hərəkatın başlıca siyasi məqsədini Səud ailəsinin devrilməsi və ölkədə İran modelinə müvafiq İslam dövlətinin qurulması təşkil edir. [1;40]Səudiyyədə şiə hərəkatının son dövrdə yetişdirdiyi ən tanınmış şəxs isə 2016-cı ilin 2 yanvarında edam edilmiş din xadimi Nimr ən-Nimr olmuşdur. O, Səudiyyə hakimiyyətini şiələrə qarşı ayrı-seçkilikdə ittiham edən kəskin çıxışları ilə daim gündəmə gəlmiş, iranmeyilli baxışlarını açıq şəkildə dilə gətirməkdən çəkinməmişdir. 2012-ci ildə həbs edilən Nimr ən-Nimrə qarşı ölkənin şərq bölgəsində kütləvi iğtişaşların və Səudiyyənin neft infrastrukturuna qarşı hücumların təşkilində fəal iştirak maddələri ilə ittiham irəli sürülmüşdür. Səudiyyə məhkəməsinin onun haqqında 2014-cü ildə çıxardığı ölüm hökmü 2016-cı ilin 2 yanvarında icra olunmuşdur. [9]

Bir məqamı da qeyd etmək lazımdır ki, Səudiyyə şiələrinin ən yaxın müttəfiqi qismində hal-hazırda Yəmən ərazisinin əhəmiyyətli hissəsinə nəzarət edən huti üsyançılarıdır. Yəmən şiə hərəkatının – "Ənsar Allah"ın ətrafında cəmləşmiş huti üsyançıları hərbiləşmiş siyasi qüvvə kimi 2004-cü ildən bu ölkədəki proseslərdə fəal şəkildə iştirak edirlər. 2015-ci ildə dövlət çevrilişi nəticəsində ölkənin hakimiyyət orqanlarını nəzarət altına alan hutilər BMT və dünya birliyi tərəfindən tanınmırlar. Bundan əlavə, hutilərin Yəməndəki hərəkətlərinə cavab olaraq Səudiyyə Ərəbistanının başçılığı altında formalaşdırılmış ərəb koalisiyası 2015-cı ildən etibarən aktiv şəkildə bu hərəkata qarşı hərbi əməliyyatlar həyata keçirir ki, bundan da daha çox dinc sakinlər zərər çəkirlər. BMT-nin açıqladığı rəqəmlərə görə, Yəmənin 29 milyonluq əhalisinin 18 milyonu qida, su və dərman çatışmazlığından əziyyət çəkir. Onlardan 8 milyonunun vəziyyəti isə xüsusilə ağırdır. Ölkədə gedən hərbi əməliyyatlar nəticəsində xəstəxanaların böyük əksəriyyəti dağıldığına görə insanların tibbi xidmətlə təmin edilməsi müşkülə çevrilib. [7]

Yəməndəki şiə üsyançılarının fəaliyyəti artıq qeyd edildiyi kimi, yalnız ölkənin daxili ilə məhdudlaşmır və onlar tez-tez Səudiyyə Ərəbistanının ərazisini, xüsusilə hərbi və neft sənayesi ob-

yektlərini raket atəşinə tutur, Səudiyyə şiələrinin hökumətə qarşı qiyamlarında fəal şəkildə iştirak edirlər. Səudiyyə Ərəbistanı 2015-ci ildən bu tərəfə huti üsyançılarının ram edilməsi, onların Yəməndən sıxışdırılması istiqamətində hərbi aksiyalar və kütləvi cəza tədbirləri həyata keçirsə də, məsələnin yaxın perspektivdə effektli həllindən danışmaq hələ tezdir.

İranın böyük şiə icmasına malik körfəz ölkələtindən ancaq Küveytlə münasibətlərini sabit kimi səciyyələndirə bilərik. Bu isə daha çox Küveyt rəhbərliyinin müdrikliyi və çevikliyi, məzhəb zəminində hər hansı təxribatlara yol verməməsi hesabına mümkün olmuşdur. Statistik məlumatlar Küveyt şiələrinin ümumi ölkə əhalisinin təxminən 23%-ni təşkil etdiyini göstərir. Hal-hazırda Küveytdə hər hansı radikal yönümlü, hərbiləşmiş və ya mövcud rejimə qarşı açıq siyasi iddialarla çıxış edənşiə hərəkatı mövcud deyil. Küveyt hökuməti, əsasən, şiə icmalarının böyük əksəriyyətini "Vətənpər qrupların koalisiyası" adlanan siyasi partiyanın çətiri altında birləşdirərək, onları İranın birbaşa siyasi təsirindən çıxarmağa müvəffəq olmuşdur. Şiə icmasının Küveyt parlamentində təmsil olunması isə onların siyasi hüquqlarının məhdudlaşdırılmasına dair Tehrandan gələcək mümkün ittihamların da qarşısını kəsir. [1;40-41]

Doğrudur, ara-sıra baş verən siyasi hadisələr Küveytdəki şiə-sünni münasibətlərində müəyyən təlatümlərə səbəb olur (məsələn, İran-İraq müharibəsinin gedişində Küveytin İraqı dəstəkləməsi, yaxud Küveytin Səudiyyə Ərəbistanının başçılığı altında Yəmən şiələrinə qarşı hərbi aksiyalarda iştirakı və s. – E.Ə.), lakin ümumilikdə bu ölkədəki məzhəblərarası münasibətlər hər hansı ciddi gərginlikdən, yaxud mümkün qarşıdurmalardan xəbər vermir.

Beləliklə də, qeyd olunan faktlar İranın Fars körfəzi ölkələriləri ilə münasibətlərində şiə amilinin, yəni məzhəbçiliyin olduqca böyük çəkiyə və təsirə malik olduğunu sübut edir. Məsələyə İranın maraqları nöqteyi-nəzərindən baxdıqda bu tam təbii qarşılanmalıdır. Çünkişiə amili Körfəz bölgəsində İran üçün müəyyən mənada özünümüdafiə mexanizmi rolunda çıxış edir, ona region ölkələrinin ərazisində rahatlıqla kəşfiyyat və təsir şəbəkəsi yaratmağa imkan verir. Lakin, çox təəssüf ki, bir çox hallarda Tehran şiələrin siyasi hüquqlarının müdafiəsi adı altında körfəz ölkələrindəki şiə qrupları vasitəsilə ərəb dövlətlərinin daxili işlərinə müdaxilə edir, kütləvi iğtişaşların, gərginliyin yaranmasına səbəb olur və müxtəlif təzyiqlərlə onlara öz maraqlarını qəbul etdirməyə çalışır. Təcrübə göstərir ki, belə hallarda ən çox zərər görən, son nəticədə ciddi hücumlara və cəza tədbirlərinə məruz qalan da elə həmin ölkələrdə yaşayan şiə icmasının üzvləri olur. Belə aksiyalar Yəmənin timsalında ölkələri uzunmüddətli hərc-mərcliyə, hakimiyyət böhranına və humanitar fəlakətə qədər gətirib çıxara bilər. Doğrudur, bu cür münaqişələr İrana qısamüddətli də olsa, müəyyən siyasi dividentlər qazandırır və həmin ölkələrdə sabitliyin pozulması ilə nəticələnir. Ancaq yaranan böhran sonda İraqın timsalında şiə icmasının da Tehrandan üz çevirməsinə, İranın bölgədəki nüfuzunun ciddi şəkildə azalmasına xidmət edir. Çox güman ki, körfəz ölkələrindəki şiə icmaları İran üçün həmin ölkələrin daxili işlərinə qarşımaq üçün olduqca effektiv nüfuzetmə aləti kimi öz rolunu bir müddət daha qoruyub saxlayacaqdır, ancaq İranın yaxın perspektivdə həmin icmaları Livandakı kimi ölkənin siyasi həyatına daxil etmək cəhdləri böyük ehtimalla nəticə verməyəcək. Səudiyyə Ərəbistanı və Bəhreyndə İran amili səbəbindən daim mərkəzi hakimiyyətin sərt nəzarəti altında olan bu icmaların mütəşəkkil siyasi qüvvəyə çevrilmək cəhdləri əbəsdir. İraqdakı şiə icması isə ölkədəki ağır iqtisadi durum və gərginlik ucbatından zamanla Tehrandan uzaqlaşmağa, ondan daha təhlükəsiz məsafədə dayanmağa can atacaqlar. Yəməndə isə xutilərin hakimiyyəti uzun müddət əllərində saxlaması, ən əsası isə onların dünya birliyi tərəfindən tanınmaları az inandırıcıdır. İranla ABŞ arasında son aylarda yaranmış müharibə ehtimalı, həmçinin Tehrana qarşı qəbul edilən sərt sanksiyaların onu sözügedən bölgədə daha ehtiyatla davranmağa vadar etdiyi bir həqiqətdir, ancaq mümkün

müharibə zamanı körfəz ölkələrindəki şiə icmalarının öz dövlətləri üçün ciddi problemlər yaratması ehtimalı da yüksək olaraq qalır. Yekun olaraq, əminliklə deyə bilərik ki, İranın siyasi-ideoloji sistemində köklü dəyişikliklər baş verмədikcə bu ölkənin körfəz dövlətləri ilə münasibətlərində şiə amili və "İslam inqilabının ixracı" prinsipi müəyyən fasilələrlə özünü büruzə verməyə davam edəcəkdir.

## ƏDƏBİYYAT

1. Ильина Ю.И. Религиозно-политическое влияние Ирана в странах Персидского залива // Вестник РУДН, серия «Политология», 2016, №3
2. Манучихри А. Политическая система Ирана. Санкт-Петербург, 2007
3. Ру Жан-Поль. История Ирана и иранцев. От истоков до наших дней. Перевод с французского М.Ю.Некрасова. Санкт-Петербург, 2012
4. История Ирана. Ответственный редактор: Профессор М.С.Иванов. Москва, 1977
5. «Газета.ru». 14.03.2011 г.
6. «Коммерсант». 27.11.2018 г.
7. и.а.«РБК» 22.09.2018 г.
8. и.а. «РИА-НОВОСТИ» 13.05.2016 г.
9. и.а. «ТАСС». 2.01.2016.
10. и.а. EURASİA DAİLY. 30.03.2017.
11. https://ru.globalvoices.org. 31.07.2018.

***Резюме***

***Эльдар Амиров***

***Фактор религиозной общины (секты) во взаимоотношениях Исламской Республики Иран со странами Персидского залива: история и современность***

***Ключевые слова:*** *Иран, исламскаяреволюция, Персидскийзалив, шиитскиегруппировки, политическиеинтересы*

В статье автор на многочисленных примерах рассматривает иранскую политику в регионе Персидского залива после революции 1979 года. Отдельно рассматриваются отношения Ирана с каждой страной в регионе с акцентом на взаимодействие Тегерана с шиитскими группами и общинами, проживающими в этих государствах. Определяя общие закономерности, были сформулированы определенные прогнозы и сделаны соответствующие выводы о будущих использованиях Ираном различных шиитских групп в странах Персидского залива для своих геополитических целей.

***Summary***

***Eldar Amirov***

***Denominational factors in relations between the Islamic Republic of Iran and the Persian Gulf countries: History and modernity***

***Keywords:*** *Iran, Islamic Revolution, Persian Gulf, Shia groups, political interests*

In the article, the author using the example of numerous examples, analyzed the Iranian policy in the Persian Gulf region in the context of its concept of "exporting the Islamic revolution" after the 1979 revolution. Separately, Iran's relations with each country in the region are examined with an emphasis on Tehran's interaction with Shia groups and communities living in these states. By identifying the general patterns, as well as the author's differences, certain predictions have been expressed and appropriate conclusions have been drawn regarding the prospects for Iran's future use of various Shia groups in its Persian Gulf countries for its geopolitical goals.